

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ *qapısı*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

**Sayı: 142 (24.279)**

*9 avqust 2023-cü il, çərşənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiyməti 30 qəpik**

## Azərbaycan Prezidenti İlham Əliyev Xalq artisti Rasim Balayevə "İstiqlal" ordenini təqdim edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 8-də Xalq artisti Rasim Balayevə "İstiqlal" ordenini təqdim edib.

Dövlətimizin başçısı əvvəlcə Xalq artisti Rasim Balayev ilə söhbət etdi.

**Rasim Balayev:** – Salaməleyküm.

**Prezident İlham Əliyev:** – Salam, xoş gördük.

**Rasim Balayev:** – Mənim bir arzum var idi ki, Qarabağdan sonra, işlərinizdən sonra Sizi qucaqlayım. Çox şükür ki, bizə qismət oldu.

**Prezident İlham Əliyev:** – Sağ olun. Sizi, ilk növbədə, yubileyiniz münasibətilə təbrik edirəm. Sizə cansağlığı, yeni uğurlar arzulayıram.

**Rasim Balayev:** – Çox sağ olun.

**Prezident İlham Əliyev:** – Siz Azərbaycan xalqını öz sənətinizlə uzun illərdir ki, sevindirirsiniz. Fəaliyyətiniz çox məhsuldardır, onlarla filmdə çəkilmisiniz. Ümumiyyətlə, Azərbaycanın kino sənətinə çox böyük töhfə vermisiniz və bu fəaliyyət davam edir. Mən buna çox sevinirəm, çox şadam.

**Rasim Balayev:** – Çox sağ olun.

**Prezident İlham Əliyev:** – Siz, eyni zamanda ölkəmizin ictimai həyatında da çox fəalsınız. Çox dəyərli fikirləriniz ölkəmizin ümumi inkişafına dəstəkdir. Təbii ki, sizin kino fəaliyyətiniz Azərbaycan xalqı üçün Babək, Nəsimi obrazları ilə də bağlıdır. Xalq qəhrəmanımız Babəkin, dahi şairimiz Nəsiminin obrazlarını siz canlandırmısınız və Azərbaycan xalqının təsəvvüründə də onlar elə sizin obrazınızdır.



Mən sizi ürəkdən təbrik etmək, sizə cansağlığı, uzun ömür arzulamaq istəyirəm. Azərbaycan dövləti sizin fəaliyyətinizi çox yüksək qiymətləndirir, həm sovet dövründə bir çox mükafatlarla təltif olunmusunuz...

**Rasim Balayev:** – Rəhmətlik Ulu Öndərimiz 50 yaşımdan həmişə mənim qayğıma qalıb.

**Prezident İlham Əliyev:** – Bəli, elədir.

**Rasim Balayev:** – Bunu da Siz davam etdirirsiniz.

**Prezident İlham Əliyev:** – Qeyd etdiyiniz kimi, müstəqillik dövründə də 50 illik yubileyinizdə sizi "Şöhrət" ordeni ilə təltif etmişdir.

**Rasim Balayev:** – Siz isə "Şərəf" ordeni.

**Prezident İlham Əliyev:** – Bəli, mən "Şərəf" ordeni ilə. Bu yubiley ərəfəsində də siz yüksək ordenimiz olan "İstiqlal" ordeni ilə təltif edilmisiniz. Sizi bir daha təbrik edirəm.

**Rasim Balayev:** – Təşəkkür edirəm, cənab Prezident. Dediyim odur ki, mən Sizin apardığınız bütün siyasəti – daxili və xarici siyasəti dəstəkləyirəm. Möhtəşəm Qələbə də Sizin adınızla bağlıdır. Mən xalqın arasında oluram, bütün təbəqələrlə görüşürəm, Siz öz adınızı tarixə bir Ali Baş Komandan kimi, elə əsl Babək kimi yazdınız. Əsl Babək Sizsiniz, biz onun obrazını oynayırıq.

Bu mükafat Azərbaycan sənətinə, sənətkarlara verilən qiymətdir. Biz başda Siz – Ali Baş Komandan olmaq şərtilə qəhrəmanlarımızı, qazilərimizi mütləq kino xətti ilə vəsf etməyə borcluyuq. Bu bizim borcumuzdur, biz gərək bunu edək.

Mən Sizin bütün bu fəaliyyətinizi bir vətəndaş kimi dərindən izləyirəm və Sizə çox böyük inamımız var. Ad gününüzü rayonlarda, Qarabağda camaatla birlikdə qeyd edirsiniz.

**Prezident İlham Əliyev:** – Bəli, sağ olun.

**Rasim Balayev:** – Bütün bunları hamı, millət görür. Mən Sizə bu yolda uğurlar diləyirəm.

**Prezident İlham Əliyev:** – Sağ olun.

**Rasim Balayev:** – Yenə də deyirəm, cənab Prezident, biz Sizə borcluyuq. Sizə və xalqımıza borcluyuq ki, bu gözəl, möhtəşəm Qələbəni biz kino vasitəsilə vəsf etməliyik. Çünki Qələbə, müharibədəki qəhrəmanlıqlar, orada iştirak edən qazilərin fədakarlığı hər yerdə göstərilməlidir. Mən bir-iki dəfə Şuşaya getmişəm, inanın gözlərim yaşarıb. Çünki mən 1986-cı ildə də getmişdim, orada İsa bulağının yanında ailəvi şəkil çəkdirmişdik. Sonra da 2021-ci ildə getdim. Bu xoşbəxtliyi bizə Siz bəxş etmisiniz. Siz deyirdiniz ki, bizim güclü Ordumuz var, mən nəyin və nə vaxt olacağını yaxşı bilirəm. Siz, nəhayət, bu uğuru gətirdiniz. Xalq Sizi çox sevir.

**Prezident İlham Əliyev:** – Çox sağ olun, Rasim müəllim.

**Rasim Balayev:** – Biz həmişə dövlətimizin, dövlətçiliyimizin arxasındayıq və gələcək işlərimizdə Sizin bu diqqətinizə layiq olmağa çalışacağıq. Mən inanıram ki, Sizin və xalqımızın sevdiyi filmləri yenidən çəkəcəyik.

**Prezident İlham Əliyev:** – Çox sağ olun.

***

Dövlətimizin başçısı "İstiqlal" ordenini Rasim Balayevə təqdim etdi.

**AZƏRTAC**

## M.İ.Babayevin "Şərq qapısı" qəzetinin baş redaktorunun müavini təyin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

## Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Məmməd İlqar oğlu Babayev "Şərq qapısı" qəzetinin baş redaktorunun müavini təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 8 avqust 2023-cü il*

## Vergi daxilolmaları 38 faiz artıb

Naxçıvan Muxtar Respublikasında vergi daxilolmalarında müsbət dinamika davam edir. 2023-cü ilin 7 ayında muxtar respublikanın Dövlət Vergi Xidmətinin xətti ilə büdcəyə 90,7 milyon manatdan çox vergi daxil olub ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 38 faiz və ya 25 milyon manat çoxdur. Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidmətində qeydiyyatda olan vergi ödəyiciləri üzrə vergi daxilolmaları ötən ilin müvafiq dövrü ilə müqayisədə 46,4 faiz və ya 28,1 milyon manat artıb.

Cari ilin iyul ayı üzrə vergi daxilolmalarında 2022-ci ilin müvafiq dövrünə nisbətən 49,1 faiz və ya 4,9 milyon manat artım qeydə alınıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## Muxtar respublikada aqrar sektor müasir dövrün tələblərinə uyğun, innovasiya yönümlü inkişaf etdirilir

### *Kənd təsərrüfatının 2023-cü ilin 7 aylıq mənzərəsi bir çox məsələlərə aydınlıq gətirir*

*Naxçıvan Muxtar Respublikasında 2023-cü ilin 7 ayı ərzində kənd təsərrüfatı sahəsində görülmüş işlər və qarşıda duran vəzifələr, eləcə də kənd təsərrüfatı adamlarını, fermerləri düşündürən məsələlərlə bağlı suallarımızı muxtar respublikanın kənd təsərrüfatı nazirinin müavini, nazir vəzifələrini icra edən Xəyalə Dadaşovaya ünvanladıq. Geniş, əhatəli müsahibəni oxucularımıza təqdim edirik:*

***– Xəyalə xanım, bir daha xoş gördük sizi. Bildiyimiz kimi, ötən il dekabrın 22-də ölkə Prezidentinin müvafiq Fərmanına əsasən Naxçıvan Muxtar Respublikasında dövlət idarəçiliyi sistemində dəyişiklik edilərək Nümayəndəlik institutu yaradıldı. Aparılan islahatlar çərçivəsində bu il fevralın 28-də Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini təyin edildiniz, eyni zamanda sizə Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin vəzifələrini müvəqqəti icra etmək səlahiyyəti verildi. Ötən bu qısa dövr ərzində hansı dəyişikliklərin baş verdiyini müşahidə etdiniz, ümumilikdə, kənd təsərrüfatı sahəsində hansı irəliləyişlərin əldə olunduğunu söyləmək olar?***

– Xoş gördük, təyinatımdan keçən müddət ərzində verdiyimiz təkliflər əsasında Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı sahəsində bir sıra struktur islahatları həyata keçirildi, tabeli qurum və təşkilatların fəaliyyəti gücləndirildi. Bu dövrdə əsas diqqət mərkəzimizdə olan məsələ vətəndaşlarla yerlərdə görüşlərin təşkil edilməsi, mövcud problemləri birgə müzakirə edərək həllinə nail olmaq idi. Bu məqsədlə təsərrüfat sahibləri ilə görüşlər keçirilib, onların problemləri dinlənilib, müvafiq tədbirlər görülüb, aqrar sahənin müasir dövrün tələblərinə uyğun, innovasiya yönümlü inkişafının təmin edilməsi



məqsədilə tövsiyələr verilib. Suvarma ilə bağlı problemlərin həlli istiqamətində Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin məsul şəxsləri də cəlb olunub, Babək rayonunun Qahab kəndində suvarma suyuna olan tələbatın təmin edilməsi üçün əlavə su verilib. Şərur rayonunun Zeyvə kəndində əkin həyata keçirən xarici investorun nümayəndələri ilə yerli təsərrüfat sahibləri arasında münasibətlərin dostluq çərçivəsində inkişaf etdirilməsi üçün həmin kənddə sahələrə baxış keçirilib və tövsiyələr verilib. Sədərək rayonunda balıqçılığın və camışçılığın inkişaf etdirilməsi imkanlarının müəyyənləşdirilməsi üçün rayon ərazisində mövcud su hövzələrinin ətrafına baxış keçirilib, investorların cəlb olunması istiqamətində işlərə başlanılıb. Təsərrüfat sahiblərinin qaldırdıqları məsələlərlə bağlı rayon və şəhər icra hakimiyyətlərinə müraciətlər ünvanlanaraq gübrə, toxum, pestisid istehsal vasitələrinə olan tələbat müəyyənləşdirilib və müvafiq tədbirlər görülüb.

Təyinatımdan sonra mənim və ümumiyyətlə, bütün naxçıvanlı təsərrüfat adamları üçün ən əlamətdar hadisələrdən biri mayın 17-19-da Bakı Ekspo Mərkəzində 16-cı Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı – "Caspian Agro" və 28-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi – "InterFood Azerbaijan" sərgiləri idi. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi, fermerlər, ailə təsərrüfatçıları olaraq ilk dəfə idi ki, Bakı şəhərində keçirilən beynəlxalq bir tədbirdə birgə iştirak edirdik. Sərgilərdə 60 nəfər heyətlə, çoxlu sayda bir-birindən dəyərli, müxtəlif çeşidli kənd təsərrüfatı məhsulları ilə biz muxtar respublikanı təmsil etdik. Həm hazır məhsullar, həm də təbii bitkilər pavilyonumuzda yer almışdı. Sərgidə ölkə başçısının bizim pavilyona gəlişi, məhsullarımızı yüksək qiymətləndirməsi bizə, bütün naxçıvanlılara böyük diqqət və dəstək oldu. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin sərgidə uğurla iştirak etməsi ilə əlaqədar bizimlə görüşdə yüksək təəssüratlarını bölüşməsi, mühüm tövsiyə və tapşırıqlar verməsi bizi yeni belə uğurlara ruhlandırdı, stimul verdi.

***– İstərdim növbəti sualı bu gün təsərrüfat sahiblərini ən çox düşündürən bir məsələ üzərində qurum. Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının "Elektron kənd təsərrüfatı" informasiya sisteminə inteqrasiya olunanadək Naxçıvanda subsidiyaların verilməsi qaydası ölkəmizin digər yerlərindən fərqlənəcək. Bununla bağlı müvafiq qaydalar müəyyənləşib. Həmin qaydalar barədə qısa məlumat verməyinizi istərdik.***

– Bəli, bu gün bütün təsərrüfatçıların diqqətində olan vacib məqama toxundunuz. Bu məsələ ilə bağlı deyə bilərəm ki, Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində elektron informasiya sistemi yaradılana və Azərbaycan Respublikasının "Elektron kənd təsərrüfatı" informasiya sisteminə inteqrasiya olunanadək "Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı ilə əlaqədar fiziki və hüquqi şəxslərə Naxçıvan Muxtar Respublikasının büdcəsinin vəsaiti hesabına subsidiyaların verilməsinin müvəqqəti Qaydası"nın layihəsi, əsaslandırılması və hüquqi ekspertiza sənədi hazırlanaraq baxılması, o cümlədən müvafiq qərarın qəbul edilməsi üçün Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə və Nazirlər Kabinetinə göndərilib və təsdiq edilib. Sözügedən qaydalarda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 sentyabr tarixli Qərarı ilə təsdiq edilmiş "Arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə (pətəyə) görə subsidiya verilməsi Qaydası"nın tələblərinə əsasən 2018-ci ildə fəaliyyət göstərən arıçılara ödənilməyən subsidiyaların cari ildə verilməsi nəzərdə tutulub. Qaydalara əsasən Aqrar Subsidiya Şurasının yaradılması istiqamətində nümayəndələrin ayrılması üçün qurumlara müraciət ünvanlanıb, Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı, İqtisadiyyat, Maliyyə nazirliklərinin, Dövlət Statistika Komitəsinin, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin əməkdaşlarından, o cümlədən Ailə Təsərrüfatları İctimai Birliyinin üzvündən ibarət şura yaradılıb. Şuranın qərarı əsasında payızlıq və yazlıq əkinlər aparan fermerlərə gübrələrin verilməsi təmin olunub, payızlıq əkinlər üzrə nəzərdə tutulan subsidiya məbləğinin 25 faizi

*Ardı 2-ci səhifədə*

fermer kartlarına köçürülüb, yazlıq əkinlər üzrə isə davam etdirilir...

***– Bəs ayrı-ayrı əkin növləri üzrə subsidiyalaşdırmanın vəziyyəti necədir?***

– Qeyd edim ki, operativ məlumatlara əsasən indiyədək 3439,6 hektar yaz əkini (18 hektar buğda, 387,7 hektar arpa, 6,3 hektar noxud, 740 hektar qarğıdalı, 2,8 hektar günəbaxan, 23,6 hektar yer fıstığı, 217,3 hektar soğan, 562,1 hektar kartof, 468,48 hektar bostan bitkiləri, 51,9 hektar tütün və sair əkinlər) aparılıb. Yazlıq əkinlərə gübrələrin verilməsi təmin olunub, nəzərdə tutulan subsidiya məbləğinin 25 faizinin fermer kartlarına köçürülməsi istiqamətində işlər davam etdirilir. Həmçinin muxtar respublika ərazisində meyvə bağlarının və üzüm plantasiyalarının mövcud vəziyyəti araşdırılaraq təhlil olunub. Təhlillər nəticəsində muxtar respublika üzrə 953,7 hektar meyvə bağının (ondan 575,8 hektarı intensiv, 377,9 hektarı ənənəvi), 281,8 hektar üzüm plantasiyasının (ondan 15,9 hektarı intensiv, 265,9 hektarı ənənəvi) olduğu müəyyən edilib və həmin sahələrə subsidiyaların verilməsi istiqamətində işlərə başlanılıb. 2022-ci ildə Şərur, Babək və Kəngərli rayonlarında 12 istehsalçı tərəfindən 73,3 hektar sahədə tütün əkini həyata keçirilib və nəticədə, 82881,4 kiloqram quru tütün toplanılıb. Toplanılan tütün Şərur rayonu üzrə 2 istehsalçı tərəfindən 8 hektar sahədən 5185,3 kiloqram, Babək rayonu üzrə 1 istehsalçı tərəfindən 12,1 hektar sahədən 7334,9 kiloqram və Kəngərli rayonu üzrə 9 istehsalçı tərəfindən 53,2 hektar sahədən 70361,2 kiloqram olub və "Cahan Tabak Beynəlxalq" Məhdud Məsuliyyətli Cəmiyyətinin qəbul məntəqəsinə təhvil verilib. Lakin həmin ildə istehsalçılar təhvil verdikləri quru tütünə görə subsidiya ala bilməyiblər. Bu səbəbdən həmin istehsalçılara 14978, 31 manat (subsidiya 14918, 63 manat, bank xidməthaqqı 59,68 manat) olmaqla subsidiyanın verilməsi təmin edilib. Bundan başqa, yeni doğulmuş buzovlara və arıçılıqla məşğul olan fermerlərə saxladıqları hər arı ailəsinə görə subsidiyaların verilməsi əvvəllər Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidməti tərəfindən həyata keçirilib. Lakin sənədləşmələrin düzgün aparılmaması və digər səbəblərdən bu günədək həmin istehsalçılar subsidiya ala bilməyiblər. Hazırda Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidməti ləğv olunduğuna görə arı ailələrinə və buzovlara görə subsidiyaların verilməsinin təmin edilməsi istiqamətində işlər Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi tərəfindən həyata keçirilir.

***– Siz də təsdiq edərsiniz ki, məhsuldarlığın əldə olunmasında əsas faktorlar sırasında əkinlərin aqrotexniki qaydalara uyğun becərilməsi, keyfiyyətli gübrələrlə vaxtlı-vaxtında təminat da yer alır. Bununla bağlı aidiyyəti təşkilat tərəfindən hansı işlər görülüb?***

– Operativ məlumatlara əsasən payızlıq əkinlər üzrə 20762 hektar (12213 hektar buğda, 8549 hektar arpa) əkin aparılıb, həmin əkinlərin 12811,6 hektarına payızda, 14754,4 hektarına mart-may aylarında su verilməsi təmin olunub, alaq otlarına qarşı 7088,8 hektar əkin sahəsində mübarizə tədbirləri aparılıb, həmçinin "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən əkin həyata keçirən 5 istehsalçıya 2022-ci ilin dekabr ayında, ümumilikdə, 91 hektar sahəyə 13377 manat dəyərində 8918 kiloqram gübrə verilib. Bununla yanaşı, cari ildə payızlıq taxıl əkinləri üçün nazirlik tərəfindən "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti vasitəsilə muxtar respublika üzrə subsidiya məsələlərinin tənzimlənməsi üçün 6800 istehsalçıya 20658,68 hektar taxıl əkini sahəsinə 6197,6 ton gübrənin (3408682,20 manat dəyərində) verilməsi təmin edilib.

***– Ölkəmizin əsas aqrar regionlarından hesab olunan Naxçıvanda kənd təsərrüfatının xüsusilə taxılçılıq sahəsi geniş inkişaf edib, fermerlər tərəfindən bu sahəyə diqqətin daha çox olduğu özünü məhsul tədarükündə də göstərir. Bu baxımdan cari biçin dövrünü necə xarakterizə etmək olar?***

– Əlbəttə ki, sizin də qeyd etdiyiniz kimi, muxtar respublikada cari ildə taxıl biçininin vaxtında həyata keçirilməsi, itkisiz yığılaraq anbarlara daşınması, o cümlədən biçindən sonra tələb olunan aqrotexniki tədbirlərin həyata keçirilməsi ilə əlaqədar işlərin koordinasiyasını təmin etmək nazirliyin əsas vəzifələrindəndir. Bu məqsədlə nazirlikdə Mərkəzi Qərargah yaradılıb. 1 avqust 2023-cü il tarixədək muxtar respublikada, ümumilikdə, 19478,4 hektar əkin sahəsində taxıl biçini həyata keçirilib, 48736,8 ton məhsul toplanılıb, orta məhsuldarlıq 25 sentner/hektar olub. Şərur rayonu üzrə 4184,3, Babək rayonu üzrə 5883, Culfa rayonu üzrə 1821,7, Ordubad rayonu üzrə 856, Şahbuz rayonu üzrə 580,2, Kəngərli rayonu üzrə 3584, Sədərək rayonu üzrə 1880,7, Naxçıvan şəhəri üzrə isə 688,4 hektar sahədə taxıl biçini aparılıb. Fermerlər tərəfindən toxumun düzgün seçilməməsi, aqrotexniki qulluq qaydalarının vaxtında və düzgün aparılmaması, o cümlədən suvarma suyunun çatışmazlığı məhsuldarlığın aşağı düşməsinə səbəb olub. Bu səbəblər üzündən 1456 hektar sahədə bitkilər quruyub. Taxıl biçini başa çatdıqdan sonra aparılmış taxıl əkinləri və yekun nəticələrə dair müşavirənin keçirilməsi nəzərdə tutulur.

***– Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 7 dekabr və 2006-cı il 7 mart tarixli qərarları ilə bir sıra müvafiq məsələlərə dair məlumatların müəyyənləşdirilməsi və ehtiyac duyulan preparat və vaksinlərə tələbatın öncədən ödənilməsinin təmin edilməsi məqsədilə Naxçıvanda işçi qrupu yaradılıb. Həmin işçi qrupunun fəaliyyəti nədən ibarətdir?***

– Bu məsələyə bir qədər açıqlama gətirərək bildirim ki, müvafiq qanunvericiliyə əsasən qeyd edilən məsələlərə dair məlumatların müəyyənləşdirilməsi və ehtiyac duyulan preparat və vaksinlərə tələbatın öncədən ödənilməsinin təmin edilməsi məqsədilə 7 rayon və bir şəhər üzrə işçi qruplar yaradılıb. İşçi qrupların tərkibi Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər, Səhiyyə nazirliklərinin, Dövlət Baytarlıq Xidmətinin, Naxçıvan Yaşıllaşdırma Xidmətinin, rayon və şəhər icra hakimiyyətlərinin əməkdaşlarından təşkil edilib. İşçi qruplar tərəfindən aparılan fitosanitar və epizootik monitorinqlər zamanı bitkiçilik, heyvandarlıq, quşçuluq və arıçılıq təsərrüfatlarının qeydiyyatının aparılması, əkin təyinatlı torpaqların, bitkiçilik təsərrüfatlarının, saxlanma sahələrinin, örüş-otlaq sahələrinin mövcud vəziyyətinin qiymətləndirilməsi təmin olunur. Fitosanitar monitorinq üzrə işçi qrupları muxtar respublika üzrə, ümumilikdə, 118 kənd və 4 qəsəbədə monitorinqi yekunlaşdırıblar. Monitorinq zamanı ərazidə su və mikroelement çatışmazlığı, karantin tətbiq edilməyən zərərli orqanizmlər (meyvə yanığı, dəmgil xəstəlikləri, həmçinin mənənələr, yastıcalar) aşkar edilib, təsərrüfat sahiblərinə mübarizə tədbirlərinə dair tövsiyələr verilib. Hazırda monitorinqlər davam etdirilir. Epizootik monitorinq üzrə işçi qrupları Naxçıvan şəhərində, digər rayonların isə 135 kənd və 2 qəsəbəsində monitorinqləri yekunlaşdırıb. Monitorinq aparılmış ərazilərdə olan heyvan və quşlarda hər hansı bir yoluxucu xəstəliklərə rast gəlinməyib. Lakin qeyd olunan şəhər və rayonların yaşayış məntəqələrində sahibsiz itlər və vəhşi heyvanlarla (qaban, tülkü, çaqqal, canavar və ayı) mübarizənin aparılmasının çətin olduğu bildirilib, məsələnin həlli istiqamətində aidiyyəti üzrə məlumat verilib. Hazırda monitorinqlər davam etdirilir.

***– Dünya praktikasında kənd təsərrüfatı sahəsində ən dözülməz vəziyyət yoluxucu xəstəliklərin yayılmasıdır. Xüsusilə idxal əməliyyatları zamanı yayılmanın baş verməsi daha aktiv hal alır. Naxçıvanda bununla bağlı hansı qabaqlayıcı tədbirlər görülüb?***

– Qeyd etdiyiniz məsələ həm təsərrüfat sahibləri, həm də aidiyyəti təşkilatlar üçün olduqca həssas, aktual və önəmlidir. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi tərəfindən cari ilin ötən dövründə yoluxucu xəstəliklərin ərazimizə daxil olmaması üçün lazımi tədbirlərin görülməsi diqqətdə saxlanılıb. Belə ki, Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının məlumatına əsasən son zamanlar bir sıra ölkələrdə heyvan sağlamlığına təhlükə yaradan dabaq xəstəliyinin "SAT-2" serotipinin aşkarlandığını nəzərə alaraq Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidməti ilə birgə tədbirlər görülüb, riskli ölkələrdən daxil olan aidiyyəti nəqliyyat vasitələrinin, o cümlədən piyada keçidlərinin dezinfeksiyası ilə bağlı tədbirlərin (dezobaryerlərin qurulması) həyata keçirilməsinin təmin olunması üçün Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsi məlumatlandırılıb. Ehtiyat tədbirlərinin görülməsi məqsədilə dabaq xəstəliyinin "SAT-2" serotipi üçün vaksinlərin alınması planlaşdırılıb, şəhər və rayon icra hakimiyyətlərinə heyvandarlıq təsərrüfatlarının diqqətdə saxlanılması üçün tövsiyələr verilib.

***– Söhbətin əvvəlində sizin də qeyd etdiyiniz kimi, 2023-cü ilin ötən dövründə Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində bir sıra struktur islahatları olub, vahid idarəçilik altında yeni təşkilatlar formalaşdırılıb. Həmin təşkilatlar sırasında fermerlərin ən çox müraciət etdiyi "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti də yer alıb. Həmin qurumun nazirliyin tabeliyində fəaliyyəti necə qurulub, texnika və texnologiyaların satışı prosesində hansısa dəyişiklər gözlənilirmi?***

– Bəli, cari ildə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyinə verilib, qurumun adı dəyişdirilərək "Naxçıvan Aqroservis" Açıq Səhmdar Cəmiyyəti adlandırılıb və Dövlət Vergi Xidməti tərəfindən qeydiyyata alınıb. "Naxçıvan Aqroservis" ASC-də aparılmış monitorinqlər zamanı cəmiyyətin texnika parkında xeyli sayda texnika və texnoloji avadanlıqların əvvəlki illərdə olduqca baha qiymətə fermerlərə təklif olunması səbəbindən onların uzun müddət satışının həyata keçirilmədiyi aşkar edilib. Bu texnika və avadanlıqların qiymətlərinə yenidən baxılması üçün müvafiq komissiyanın yaradılması məqsədilə aidiyyəti üzrə müraciət olunub. Komissiya təşkil edildikdən və mövcud bazar qiymətlərinə uyğun qiymətlər müəyyənləşdirildikdən sonra texnika və avadanlıqlar lizinq və nağd qiymətlərlə satışa çıxarılacaq. Məlumat üçün bildirim ki, "Naxçıvan Aqroservis" ASC-nin texnika parkında hazırda 402 texnika və texnoloji avadanlıq mövcuddur.

***– Bildiyimiz kimi, Kənd Təsərrüfatı Nazirliyi fermerlərə bütün aqraryönümlü tədbirlərdə dəstək olmaqla yanaşı, həm də elmi-tədqiqat işlərini də yerinə yetirir. Bu sahədə yeniliklər varmı?***

– Cari ildə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən elmi-tədqiqat işlərinə başlanılıb, Əliabad qəsəbəsi ərazisində 0,5 hektar sahədə kinoanın, 0,6 hektarda Naxçıvan düyüsünün, 0,3 hektar ərazidə isə yem sorqosunun sınaq əkini həyata keçirilib. Bununla yanaşı, Ulu Öndər Heydər Əliyevin 100 illiyi ərəfəsində Naxçıvan Muxtar Respublikasının florasını zənginləşdirməklə yanaşı, 44 günlük Vətən müharibəsində şəhid olan Azərbaycan övladlarının xatirəsini yaşatmaq, Azərbaycan Ordusunun Zəfər simvolunun nəsildən-nəslə ötürülməsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən xarıbülbül bitkisinin muxtar respublikaya gətirilməsi təmin olunub, nazirliyin aidiyyəti laboratoriyasında bitkinin analizləri aparılıb, analizlər nəticəsində karantin və ya digər zərərli orqanizmlər aşkar edilməyib. Bundan sonra sınaq məqsədilə xarıbülbülün Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyində, Naxçıvan Bioresurslar İnstitutunda, Culfa rayonunun uyğun ərazisində, həmçinin Batabat yaylağında elmi-tədqiqat işlərinə başlanılıb.

***– Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq olunan "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda kənd təsərrüfatı sahəsinə xüsusi diqqət ayrılıb. Proqramın aqraryönümlü hazırkı icra vəziyyəti barədə nə deyə bilərsiniz, perspektiv planda nələr nəzərdə tutulur?***

– Qeyd etdiyiniz Dövlət Proqramında bitkiçiliyin, o cümlədən üzümçülüyün və şərabçılığın, heyvandarlığın, arıçılığın, baramaçılıq və ipəkçiliyin inkişafı, kənd təsərrüfatı məhsullarının emal və qablaşdırma sahələrinin inkişaf etdirilməsi, spesifik və orqanik kənd təsərrüfatı məhsullarının brendləşdirilməsi və təşviqi, kənd təsərrüfatı istehsal vasitələri ilə təminat səviyyəsinin artırılması, fermerlərə məsləhət xidmətlərinin göstərilməsinin təşkili, aqroparkların yaradılması, suvarma sistemlərinin yaxşılaşdırılması və digər bu kimi məsələlər nəzərdə tutulub. Hazırda proqramdan irəli gələn məsələlərin icrasına başlanılıb, alt tədbirlər planı hazırlanıb, alt tədbirlərdə ehtiyac duyulan bir çox məsələlərin həlli ilə yanaşı, aqrar sahənin inkişafında əsas olan əkin təyinatlı torpaqların istifadəsiz saxlanılmasının qarşısının alınması və mütərəqqi suvarma və əkin texnologiyalarından istifadə ilə bağlı təkliflər də verilib. Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, o cümlədən Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti ilə birgə hazırlanmış "Naxçıvan Muxtar Respublikası üzrə su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2023-2025-ci illər üçün Tədbirlər Planı"nda nəzərdə tutulan tədbirlər Dövlət Proqramının alt tədbirlər planına daxil edilib.

***– Dövlət Proqramında qarşıya qoyulan vəzifələr sırasında xüsusilə baramaçılıq və ipəkçiliyin inkişafı diqqəti çəkir. Məlumdur ki, vaxtilə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu ipəkçiliyin əsas məskənlərindən sayılıb, ancaq, təəssüf ki, son illərdə bu sahəyə diqqət o qədər çox olmadığından bu qədim, ənənəvi sahə məhv olmaq üzrədir. Yəqin ki, bu məsələ sizin də diqqətinizdən yayınmayıb...***

– Bəli, təəssüf ki, qədim ənənəvi məşğuliyyət sahəsi olan baramaçılığın inkişafında əvəzsiz rol oynayan Ordubad Barama Toxumu Zavodu diqqətsizlikdən yararsız hala düşüb. Bu sahəni yenidən dirçəltmək məqsədilə həmin zavoda, o cümlədən baramaqurutma, baramaaçma və ipək istehsalı istiqamətli fabrikə baxış keçirilib, fəaliyyətin bərpasının təmin olunması istiqamətində yerli və xarici investorlarla danışıqlar aparılıb. Ümummilli Lider Heydər Əliyevin 100 illiyi münasibətilə baramaçılığın və ipəkçiliyin inkişafında əsas olan tut bağlarının salınması həyata keçirilib. Belə ki, 2023-cü il 29 mart tarixdə Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Türkiyə Respublikasının Kənd Təsərrüfatı və Meşə Nazirliyi arasında yaradılmış əməkdaşlıq çərçivəsində Ordubad rayonunun Əylis düzündə 1,2 hektar ərazidə Türkiyədən gətirilmiş 3 növ, ümumilikdə, 600 ədəd tut ağacından "Azərbaycan-Türkiyə ipək bağı" salınıb. Bağ mütəmadi olaraq nəzarətdə saxlanılıb və suvarma suyu ilə təmin olunub. Baramaçılığın inkişafında yem bazasının təşkili üçün bağın sahəsinin növbəti mövsümdə genişləndirilməsi nəzərdə tutulub. Bununla yanaşı, Ordubad rayonunda vaxtilə mövcud olmuş baramaçılıq və ipəkçilik müəssisələrinin bərpası və bu fəaliyyət üzrə qədim ənənələrin davam etdirilməsi üçün investorların cəlb olunması istiqamətində işlər davam etdirilir.

***– Mətbuatda da xəbər verildiyi kimi, Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı ilə sentyabrın 8-i və 9-da Naxçıvanda ilk dəfə "Aqro festival" keçiriləcək. Bu festivalın əhəmiyyəti barədə hazırlıq işləri ilə bağlı fikirlərinizi öyrənmək istərdik...***

– Festivalda müxtəlif kənd təsərrüfatı texnikaları, toxum, gübrə və digər istehsal vasitələrinin, o cümlədən kənd təsərrüfatı məhsullarının nümayişi və satışı həyata keçiriləcək. Festivalda qardaş Türkiyə Respublikasından və Azərbaycanın digər bölgələrindən olan təsərrüfatçılar da iştirak edəcək. Sonda festival iştirakçılarının rəyi ilə sertifikatlar təqdim olunacaq, iştirak etmək istəyən şəxslərə bilet əldə edilməsi və hotel seçimində istiqamət veriləcək. Məqsəd qardaş ölkənin bu sahədə təcrübəsini mənimsəmək, qarşılıqlı fikir və təcrübə mübadiləsi aparmaq, yeniliklərlə əyani tanış olmaq yolu ilə muxtar diyarımızda aqrar sektorun daha da inkişafına nail olmaqdır.

***– Sizə bundan sonrakı fəaliyyətinizdə də uğurlar arzulayır, suallarımızı ətraflı cavablandırdığınız üçün təşəkkür edirik!***

**Nail ƏSGƏROV**

## Muxtar Babayev Naxçıvanda vətəndaşları qəbul edəcək

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev avqustun 25-də Naxçıvanda vətəndaşları qəbul edəcək. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər nazirliyindən verilən məlumata görə, qəbul avqustun 25-də nazirliyin inzibati binasının (ünvan: Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42) 5-ci mərtəbəsində iclas zalında baş tutacaq.

Qəbulda iştirak etmək istəyən vətəndaşlar aşağıda qeyd olunan nömrələrlə əlaqə saxlaya bilərlər:

*Malik İsmayılov: 051-364-92-92*
*Sirac Kazımov: 060- 205-00-52*
*Qəbul otağı: 036-545-72-58*

**Xəbərlər şöbəsi**

## Sosial sığorta haqları üzrə daxilolmalar 12,1 faiz artıb

Naxçıvan Muxtar Respublikasında 2023-cü ilin yanvar-iyul ayları ərzində muzdlu işçi sayının və əməkhaqqı fondunun "ağarması" prosesi şəraitində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 86,6 milyon manatdan çox olub. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,1 faiz və ya 9,4 milyon manat çoxdur. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 2022-ci ilin eyni dövrünə nisbətən 17,2 faiz artaraq 24,5 milyon manat təşkil edib. 2023-cü ilin 7 ayında işsizlikdən sığorta haqları üzrə daxilolmalar ötən ilin müvafiq dövrü ilə müqayisədə 17,9 faiz artaraq 2,3 milyon manatdan çox olub. Həmin dövrdə icbari tibbi sığorta haqları üzrə daxilolmalar 14 milyon manat olmaqla ötən ilin eyni dövrünə nisbətən 8,3 faiz artıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

# Təhsildə beynəlxalq əməkdaşlıq ali təhsilin keyfiyyətini artırmaqla yanaşı, savadlı və bacarıqlı kadrlarla təminata da şərait yaradır

## *Naxçıvan Dövlət Universiteti ilə Türkiyə arasında tibb elmi sahəsində də əməkdaşlıq gücləndirilir*

*Bu gün tibbi xidmətin keyfiyyətcə müasir standartlar səviyyəsinə yüksəldilməsi, vətəndaşların sağlamlığının etibarlı təminatı məsələləri dövlətin üzərinə götürdüyü sosial öhdəliklər sırasında mühüm yer tutur. Dövlət başçısı cənab İlham Əliyev Ulu Öndərin müəyyənləşdirdiyi strateji siyasət kursunu səhiyyə sistemində də layiqincə davam etdirir. Ötən müddətdə səhiyyə sisteminin inkişafı, bu sahənin maddi-texniki bazasının və kadr potensialının gücləndirilməsi, infrastrukturun yeniləşdirilməsi daim diqqət mərkəzində saxlanılır.*



Təhsil millətin gələcəyidir

Bu istiqamətdə görülən tədbirlər çərçivəsində kadr təminatının təkmilləşdirilməsi də vacib məsələ kimi daim diqqət mərkəzindədir. Ölkəmizin ali təhsil müəssisələri sırasında qabaqcıl yerlərdən birində qərar tutan Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi 1999-cu ildə Ümummilli Liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanın blokada şəraitində olması nəzərə alınaraq tibbi kadrlara tələbatın ödənilməsi məqsədilə yaradılmışdır. O dövrdə bir ixtisasla fəaliyyətə başlayan fakültə ötən müddətdə inkişaf edərək hazırda həm bakalavr, həm də rezidentura təhsili üzrə həkim hazırlığı həyata keçirir. Bu gün fakültənin müasir avadanlıqlarla təchiz olunmuş xəstəxanası tələbələrin nəzəri və praktiki biliklərinin təkmilləşdirilməsində müstəsna rol oynayır. Bununla yanaşı, tibb sahəsi üzrə yüksəkixtisaslı kadrlar hazırlamaq və dünya tibb elminə daha sıx inteqrasiya etmək üçün ali təhsil ocağı xarici ölkə universitetləri ilə sıx əlaqələr qurmuşdur. Fakültədə yüksək tədris üçün lazımi şərait yaradılmış, müasir xəstəxana istifadəyə verilmiş, muxtar respublikanın səhiyyə müəssisələrində auditoriyalar qurulmuşdur. 25 tələbə ilə fəaliyyətə başlayan fakültədə hazırda 1491 tələbə təhsil alır ki, onların arasında xarici ölkə vətəndaşları da az deyil. Yarandığı dövrdə fakültədə yalnız Pediatriya ixtisası üzrə həkim hazırlanırdısa, bu gün Tibbi profilaktika, Müalicə işi, Əczaçılıq və Stomatologiya ixtisasları üzrə həkim, hərbi tibb, eləcə də 24 ixtisas üzrə rezident hazırlığı həyata keçirilir.

Universitetdə Tibb ixtisası üzrə tələbələrin bilik və bacarıqlarının yüksəldilməsi üçün müvafiq mexanizmlər yaradılır, o cümlədən xarici ölkələrdə təlimlər təşkil edilir, müxtəlif profilli elmi-praktiki seminar və konfransların təşkili diqqət mərkəzində saxlanılır. Tibbi təhsilin məqsəd və vəzifələri, sadəcə, sistemli biliklərin verilməsi ilə məhdudlaşmamalıdır. Çünki həkim hazırlığında yalnız nəzəri biliklər kifayət etmir. Tələbələr muxtar respublikanın səhiyyə müəssisələrində, fakültənin xəstəxanasında, eləcə də xarici ölkələrdə təcrübələrə cəlb olunur, praktiki dərslərə üstünlük verilir, onlarda peşə vərdişləri formalaşdırılır.

Təhsilin keyfiyyətini yüksəltmək məqsədilə universitetdə üçmərtəbəli kliniki xəstəxana da istifadəyə verilmişdir. Bu səhiyyə müəssisəsi müxtəlif xəstəliklərin müayinə və müalicəsi üçün ixtisaslaşmaqla yanaşı, tələbələrə universitet ərazisində praktiki dərslərin keçilməsi üçün əlverişli imkanlar yaratmışdır. Fakültənin müasir tədris korpusu yenilikçi standartlara cavab verən avadanlıqlarla, kabinə və laboratoriyalarla təchiz edilmişdir. Tələbələr ixtisaslarının profillərinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının müvafiq xəstəxanalarından baza xəstəxanası kimi istifadə edir. Kliniki dərslərin əksəriyyətini xəstəxanalarda, bilavasitə xəstələr üzərində keçilməsi üçün lazımi şərait yaradılmışdır. Eyni zamanda Naxçıvan Muxtar Respublika Xəstəxanasında əməliyyatları auditoriyalarda canlı izləmək üçün müvafiq qurğular qurulmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 5 iyun 2023-cü il tarixli Sərəncamı ilə təsdiq olunan “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda da Naxçıvan Dövlət Universiteti ilə xarici ölkələrin ali təhsil müəssisələri arasında əməkdaşlığın gücləndirilməsi, birgə proqramların təşkili, universitetin nəzdində ingilisdilli orta məktəbin yaradılması da nəzərdə tutulub.



Sevindirici haldır ki, Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayevin rəhbərliyi ilə universitetdə yüksək səviyyədə qurulan beynəlxalq əlaqələr xarici ölkələrin ali məktəbləri ilə əməkdaşlıq müqavilələrinin bağlanılmasına, ikili diplom layihələrinin həyata keçirilməsinə, ortaq elmi araşdırmaların aparılmasına şərait yaradıb. Bu əməkdaşlıqlar çərçivəsində universitetin professor-müəllim heyəti müntəzəm olaraq nüfuzlu konqreslərə, sammitlərə dəvət edilir. Bu tədbirlər içərisində Tibb ixtisası üzrə təhsil alan tələbələrin qardaş Türkiyə Cümhuriyyətinin nüfuzlu universitetlərində keçdiyi ənənəvi yay istehsalat təcrübələrinin də xüsusi yeri vardır. Tələbələrimiz auditoriyalarda əldə etdikləri nəzəri biliklərlə praktikada qazandıqları təcrübəni düzgün və səriştəli tətbiq etdikdə nəticə çox yaxşı və ürəkaçan olur. Bu həm də onların gələcək fəaliyyətinə çox müsbət təsir edir.







Ötən il uğurla başa çatan və Naxçıvan Dövlət Universitetinin son illər ərzində qazandığı ən böyük nailiyyətlərdən olan 7 ölkədən 350-dən çox alim və mütəxəssisin iştirak etdiyi I Beynəlxalq Tibb Forumu yalnız ali təhsil ocağına yox, həm də ölkəmizin səhiyyə sisteminə böyük töhfə qazandırdı.

Müasir dövrümüzdə, qloballaşan dünyada milli mədəniyyət, tarixi və etnik kökləri ilə bir-birinə bağlı olan Azərbaycan Respublikası və Türkiyə Respublikası bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də əməkdaşlıq və bərabərlik nümayiş etdirir. Naxçıvan Dövlət Universitetinin beynəlxalq əlaqələrində də Türkiyənin özünəməxsus yeri vardır. Diqqətə çatdırmaq lazımdır ki, forum müddətində ali təhsil ocağımız üçün bir sıra layihələr icra olunub, gələcək plan və perspektivlər müəyyən edilib. Ən əsası qardaş ölkənin nüfuzlu universitetlərindən olan Yeditəpə Universiteti ilə gələcəkdəki geniş əlaqələrə dair memorandum imzalanıb. Bu sazişdən sonra sözügedən ali təhsil ocağı ilə Naxçıvan Dövlət Universiteti arasındakı əlaqələr daha da genişlənib.

Onu da qeyd edək ki, 1996-cı ildə əsası qoyulan Yeditəpə Universiteti ABŞ, Kanada, Rusiya, Cənubi Amerika başda olmaqla dünyanın 700-dən çox universiteti ilə beynəlxalq əməkdaşlığa malikdir. 13 fakültə ilə texniki sahədə kadr hazırlığını həyata keçirən universitetdə müxtəlif ixtisaslar üzrə müasir akademik proqramlara uyğun ingilis dilində tədris həyata keçirilir.





Təcrübədə olduğumuz Yeditəpə Universiteti ilə Naxçıvan Dövlət Universitetinin təhsil əlaqələrinin qurulması artıq ilk bəhrələrini verməyə məhz tibb təcrübəsi ilə başladı. Ali təhsil ocağında olarkən universitetin rektoru, professor Canan Aykut Bingöl geniş bir tədbirdə bu mövzuya toxundu və hər iki ali təhsil ocağı arasındakı əlaqələrdən danışdı. Bununla yanaşı, təcrübə iştirakçıları universitetin tanınmış alim heyəti ilə də görüşdü. Belə ki, universitetin Tibb fakültəsinin dekanı, professor-həkim Sena Ercan, Diş həkimliyi fakültəsinin dekanı, professor-həkim Bahar Eren Kuru, Yeditəpə Universiteti xəstəxanasının professor-həkimləri – mama-ginekoloq Erkurt Attar və həyat yoldaşı Rukset Attarın da tələbələrimizlə görüşləri çox maraqlı oldu.

Yeditəpə Universitetinin təşkilatçılığı və istəyi ilə bir neçə tələbəmizin çətin əməliyyatlarda – qaraciyər transplantasiyasında iştirak etməsi çox yaxşı nəticələr doğurdu. Tələbələrimiz bölünərək müxtəlif şöbələrdə həkimlərlə birlikdə müzakirələr apardılar, professorların göstərişi ilə tibbi müayinələr etdilər.

İyulun 10-da universitetin 18 tələbə və 4 müəllimdən ibarət olan digər qrupu isə istehsalat təcrübəsini qardaş dövlətin Qaradəniz Texniki Universitetində davam etdirdi. 30 minə yaxın tələbə sayı ilə Türkiyənin ən önəmli universitetləri sırasında olan Qaradəniz Texniki Universiteti Türkiyədə İstanbuldan sonra mühəndislik sahəsində təhsilin verildiyi ilk ali təhsil ocaqlarından biridir. Tibb ixtisası üzrə kadr hazırlayan ali təhsil ocağı kimi böyük nüfuz qazanıb. Təcrübə müddətində Tibb fakültəsinin dekanı, professor Nəşə Kaklıkkaya və universitet xəstəxanasının baş həkimi, professor Cəlal Təkinbaş ilə görüşlərimiz, Farabi xəstəxanası ilə tanışlıq da maraqlı oldu.

Bir amili də qeyd edək ki, Naxçıvan Dövlət Universitetində Qara Dəniz Texniki Universitetinin birgə təşkilatçılığı ilə altı ölkənin 300 mütəxəssisinin iştirak etdiyi 1-3 iyun tarixlərdə keçirilən I Beynəlxalq Apiterapiya və Təbiət Konqresi də əməkdaşlığımızın daha bir bariz nümunəsidir.



18 nəfər tələbə və 4 alimin iştirak etdiyi digər bir qrup isə qardaş ölkənin Ankara Dövlət Universitetində olub. Bu ali təhsil müəssisəsinin əsası 1946-cı ildə qoyulub. 36 ayrı kampusda fəaliyyət göstərən universitetdə beş mindən çox əcnəbi tələbə təhsil alır ki, bunlardan minə yaxını Azərbaycan vətəndaşıdır. Ankara şəhərindəki 2 universitetdə təcrübə keçirildi ki, bunlardan biri Türkiyə Cümhuriyyətinin ilk ali təhsil müəssisəsi olan Ankara Universiteti, digəri isə 1926-cı ildən bəri fəaliyyət göstərən Qazi Universiteti idi. 49 tələbə, 6 nəfərlik professor-müəllim heyəti 2 həftəlik təcrübə müddətində Ankara Universitetinin Tibb fakültəsinin İbn Sina və Cebeci xəstəxanalarında, Qazi Universitetinin Tibb fakültəsinin xəstəxanasında, Stomatologiya və Əczaçılıq fakültələrində oldu. Tələbələrimiz şöbə müdirləri və şöbənin həkim heyəti ilə birlikdə müxtəlif əməliyyatlarda iştirak etdilər, əməliyyat sonrası xəstələrə ilkin tibbi yardımın göstərilməsi izlənildi.

Qazi Universitetinin isə 3 fakültəsində tələbələrimiz staj keçdilər. Dosent doktor Nazmi Mutlu Karakaş ilə çox səmimi görüşümüz oldu. Tələbələrimizin əksəriyyəti göstərdikləri bacarığa görə xəstəxanadakı digər təcrübəçi tələbələrdən fərqləndirilərək onların əməliyyatlarda həkim köməkçisi kimi iştirak etməsinə şərait yaradıldı. Burada tələbələrimiz tərəfindən ilkin tibbi yardım şöbəsinə gələn xəstələrə ilk tibbi yardım da göstərildi.

Qazi Universitetinin Stomatologiya fakültəsində tələbələrimiz bir çox şöbələrdə oldular. Onların bacarıqları fakültənin professor-müəllim heyəti tərəfindən razılıqla qarşılandı. Həmin universitetin Əczaçılıq fakültəsinin dekanı, professor İlkay Orhan və dekan müavini dosent-doktor Emre Durmazın tələbələrlə görüş zamanı gələcəkdə daha böyük qruplarla uzunmüddətli təcrübələrin keçirilməsi təşəbbüsü irəli sürüldü. Əczaçılıq fakültəsində tələbələr Farmakoqnoziya, Əczaçılıq texnologiyası sahələri üzrə təcrübədə oldular.

Əczaçılıq texnologiyası bölməsində universitetimizi və Naxçıvanı daha yaxından tanımaq üçün tələbələrin seminar təşkil etmələri arzusu da reallaşdı. Tələbələrimiz və rəhbər müəllim heyəti tərəfindən təhsil sistemi və Naxçıvanın təbii sərvətlərini əks etdirən seminar keçirildi. Seminar onlarda xoş təəssüratlar yaratdı. Təcrübələrin sonunda hər bir tələbəyə sertifikat təqdim olundu.

Təcrübə prosesində mənəvi istirahətimiz də unudulmadı. Belə ki, həftəsonları təşkil edilən sosial proqramlar da həkim-tələbə kollektivi üçün yaddaqalan oldu. Trabzon şəhərinin gəzməli, görməli yerləri ilə tanışlıq, gəmi turu da maraqlı və yaddaqalan oldu. Onu da qeyd edək ki, istehsalat təcrübəmiz Trabzon mətbuatında da geniş işıqlandırıldı.

Qürur hissi ilə qeyd edirik ki, Naxçıvan Dövlət Universiteti Beynəlxalq reytinqlərdə də irəliləməyə davam edir. Doğma ali təhsil ocağımız dünya universitetlərinin veb populyarlığını müəyyən edən uniRank reytinqinin 2023-cü il iyul ayının nəticələrinə görə Azərbaycan universitetləri arasında 3-cü olub. Qeyd edək ki, bəhs etdiyimiz reytinq dünya üzrə 13.900 universitet və kolleci əhatə edir.

Ali təhsil ocağının digər bir uğuru isə WEBOMETRICS-də ölkə üzrə 15-ci, regionumuzda isə liderliyi qazanması olub. Dünyanın 30 mindən çox universitetinin reytinqini hazırlayan webometrics-də (webometrics Ranking of World Universities) 2023-cü il nəticələrinə əsasən ötən il 16-cı yerdə olan universitet bu il irəliləyərək ölkə üzrə 15-ci yeri qazanıb.

*Yüksək səviyyəli istehsalat təcrübələrinin keçirilməsinə şərait yaratdıqları, bizə lazımi qayğı göstərdikləri üçün dövlətimizə kollektivimiz adından minnətdarlığımızı bildiririk. Həmçinin qeyd edirik ki, bu ildən etibarən ingilisdilli tibb təhsilinin fəaliyyətə başlayacağı xəbəri biz müəllimləri, tələbələri daha da ruhlandırır. Eyni zamanda bu günlərdə Naxçıvan Dövlət Texniki Kollecinin, Kimya-Biologiya Liseyinin və Tibb Kollecinin universitetin tabeliyinə verilməsi də gələcəyimizə göstərilən qayğıdır və müəllimlərin, həkimlərin məsuliyyətini daha da artırır. Biz müəllimlər də bu etimadı doğrultmağa çalışacağıq.*

**İlhamə MUSTAFAYEVA**
***Naxçıvan Dövlət Universitetinin Təməl tibb fənləri kafedrasının müdiri, dosent***

**Elmar RZAYEV**
***Naxçıvan Dövlət Universiteti xəstəxanasının baş həkimi, dosent***

## Kollegiya iclası keçirilib



Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində 2023-cü ilin I yarım ilinə dair kollegiya iclası keçirilib. Kollegiyanı giriş sözü ilə komitə sədri Ramilə Seyidova açaraq bildirib ki, 2023-cü ilin I yarım ili ərzində komitə öz fəaliyyətini 2023-cü il üçün təsdiq olunmuş iş planına uyğun qurub, həmçinin ailə, qadın və uşaq hüquqlarının qorunması ilə bağlı qəbul edilmiş Dövlət proqramlarından irəli gələn vəzifələrin icrası diqqətdə saxlanılıb, hesabat dövrü ərzində bir sıra müvafiq mövzularla bağlı tədbirlər keçirilib.

Komitə tərəfindən, həmçinin "Azərbaycan ailə siyasətinin təminatçısı Ulu Öndər Heydər Əliyev" mövzusunda tədbir keçirilib. Tədbirdə müvafiq mövzuda videoçarx təqdim edilib, çıxışlar olub, "İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik" mövzusunda X muxtar respublika yazı və rəsm müsabiqəsinin qalibləri mükafatlandırılıb, müsabiqə qaliblərinin əsərlərindən ibarət sərgiyə baxış olub. Bununla yanaşı, "Heydər Əliyev və ailə dəyərləri" mövzusunda film və foto müsabiqəsi elan olunmuşdur.

Diqqətə çatdırılıb ki, hesabat dövründə "Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır" mövzusunda tədbir keçirilib, 2022-ci il ərzində muxtar respublikanın ictimai-siyasi həyatında fəal iştirak edən, müxtəlif nominasiyalar üzrə səmərəli fəaliyyətlərinə görə fərqlənən 35 qadına diplom verilib, istedadlı qadınların rəsm və əl işlərindən, eləcə də qadınlar tərəfindən nəşr olunan kitablardan və ailə təsərrüfatı ilə məşğul olan qadınların istehsal etdiyi məhsullardan ibarət sərgi təşkil olunub.

Bəhs olunan dövrdə "Liderliyə gedən yol" mövzusunda rayonlarda 150 uşağın iştirakı ilə görüşlər keçirilib.

Komitə tərəfindən "Ailələrimizi tanıyaq" layihəsi çərçivəsində yeniyetmə və gənclərin iştirakı ilə uzunömürlü nümunəvi ailələrlə görüşlər keçirilib, sağlamlıq imkanları məhdud aztəminatlı ailələrə baş çəkilib, ailələrə ehtiyaclarına uyğun ərzaq yardımı və tibbi ləvazimat verilib. Bundan başqa, Gənclər Fondu və Rəssamlar Birliyi ilə birgə muxtar respublika üzrə uşaqlar, gənclər və digər şəxslər arasında "İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik" mövzusunda X muxtar respublika yazı və rəsm müsabiqəsi elan edilib, müxtəlif nominasiyalar üzrə 23 nəfər müsabiqənin qalibi olub.

Hesabat dövründə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birgə görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100 illiyi ilə əlaqədar "Elmdə qadınlar" adlı konfrans, "İstedadlı uşaqlar-2023" adlı festival, 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə "Uşaqlar bizim gələcəyimizdir" mövzusunda tədbirlər keçirilib.

Komitə sədri qeyd edib ki, ümumilikdə, hesabat dövrü ərzində keçirilən 64 maarifləndirici tədbirdən 37 ailə və 1860 nəfər yararlanıb, 1653 təbliğat materialı, o cümlədən broşürlər paylanılıb. Naxçıvan Muxtar Respublikasında tək qadınların və ailə başçısı olan qadınların peşəyönümlü fəaliyyətə yönləndirilməsi ilə bağlı 40 qadının məlumatları aid nazirliklərə göndərilib, 6 rayonda aztəminatlı ailənin üzvü olan gənc qızlar və qadınlar üçün dekorativ-tətbiqi sənətin bədii tikmə sahəsinin öyrənilməsi ilə bağlı 6 dəfə təlim keçirilib. Təlimlərdən 126 nəfər yararlanıb.

Vurğulanıb ki, ümumilikdə, hesabat dövrü ərzində özünüməşğulluğunu təmin etmiş sosial qayğıya ehtiyacı olan qadınların əl işlərinin satışına köməklik göstərilməsi məqsədilə 48 istedadlı qadının 6514 manat dəyərində 632 əl işi və istehsal etdikləri məhsulların satışı həyata keçirilib.

Bəhs olunan dövrdə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın iclası keçirilib. Ümumilikdə, hesabat dövrü ərzində uşaq hüquqlarının qorunması ilə bağlı 54 monitorinq aparılıb.

Məruzə ətrafında çıxışlar dinlənilib, kollegiyanın qərarı qəbul edilib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Uzunoba Təlim-Məşq İdman Kompleksində ümumi bərpa işləri aparılır





Naxçıvan Futbol Federasiyasının sədri Qəzənfər Abdullayev Uzunoba Təlim-Məşq İdman Kompleksində aparılan bərpa işləri ilə tanış olub. Ümumi sahəsi 10 min 300 kvadratmetr olan kompleksin ərazisinə inzibati bina, süni örtüklü böyük futbol stadionu, üstüörtülü və çəpərlənmiş minifutbol meydançaları, ikitribunalı çimərlik futbolu stadionu daxildir.

Böyük və ministadionlarda süni ot örtüyünün baxım işləri həyata keçirilir. Qapalı meydançanın güclü külək nəticəsində yırtılmış çadır örtüyü və zərər dəymiş hissələri bərpa olunur. Çimərlik futbolu stadionunun isə ləğv olunaraq yerində təbii ot örtüyü salınması nəzərdə tutulur.

Federasiyanın sədri kompleksdə aparılan bərpa işləri ilə tanış olmuş və müəyyən tapşırıqlar vermişdir.

Qeyd edək ki, tikintisinə 2020-ci ilin avqust ayında başlanılan Uzunoba Təlim-Məşq İdman Kompleksi 3 aprel 2021-ci il tarixdə istifadəyə verilib. Burada UEFA-nın "Grassroots" layihəsi çərçivəsində futbol festivalı, Region Liqası və uşaq futbolu liqalarının oyunları, təlim-məşq toplanışları, eləcə də müvafiq idman növləri üzrə yarışlar keçirilir.

**✍ Ceyhun MƏMMƏDOV**

## Naxçıvan karateçiləri beynəlxalq turnirdə böyük uğur qazanıblar



Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş 16 yaşadək karateçilər arasında ənənəvi "Olimpiya ümidləri" beynəlxalq turniri keçirilib. Abşeron Olimpiya İdman Kompleksində reallaşan yarışa 7 ölkədən, ümumilikdə, 500-dən çox karateçi medallar uğrunda mübarizə aparıb.

Turnirdə Naxçıvandan olan karateçilər də iştirak edib. Məşqçilər Qələndər Binyətov, Tariyel Bağırov və Nicat Allahverdiyevin rəhbərliyi ilə 29 idmançımız bacarığını nümayiş etdirmək şansı əldə edib. Karateçilərimizdən 3-ü qızıl, 4-ü gümüş və 12-si bürünc olmaqla, ümumilikdə, 19 medal qazanıblar.

Onlardan Aysu Abbasova iki, Xədicə Bayramova bir qızıl medal qazanmaqla ən yaxşı nəticəyə müvəffəq olublar. Adıçəkilənlərlə yanaşı, digər karateçilərimizdən Hüseyn Qafarlı, Peyman Həsənov, Elgün Zeynalov, Ayan Cəfərova, Fatimə Bağırzadə, Məlahət Həşimli, Nərgiz Həsənli, Nur Əliyeva, Yaqub Qənbərov, Yusif Orucov, Kənan Qənbərov, Həsən İbrahimli, Əli Həmidov və Yusif İsmayılov müxtəlif əyarlı medallar əldə ediblər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

*Narkomaniya və narkobiznes dünyada yayılmış ciddi problemlərdən biridir. XXI əsrin bəlasına çevrilən bu problemlə mübarizə aparmaq üçün bir çox ölkələr və beynəlxalq təşkilatlar müxtəlif tədbirlər həyata keçirir, problemin qarşısının alınması istiqamətində cidd-cəhdlə çalışır. Sevindirici haldır ki, ölkəmizdə narkomaniyanın cəmiyyətə və insan sağlamlığına ziyanı, fəsadları və sağlam həyat tərzinin təbliğinin vacibliyi yönündə addımlar atılır, daxili işlər orqanları tərəfindən bu bəlaya qarşı ciddi və qətiyyətli mübarizə aparılır, maarifləndirici məqalələr, yazılar dərc edilir, ələlxüsus da, yetişməkdə olan gənc nəslin bu bəlaya düçar olmaması üçün məqsədyönlü tədbirlər həyata keçirilir.*

## Əsrimizin bəlasına çevrilmiş narkomaniya və narkobiznesə qarşı mübarizə hər kəsin vətəndaşlıq borcu olmalıdır



Bəs sıravi insanların bu mövzuya münasibəti necədir? Evdə, ailədə, ictimaiyyətdə hansı addımların atılması baş verəcək ciddi fəsadların qarşısını ala bilər? Bu suala cavab vermədən öncə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsindən əldə etdiyimiz məlumatı oxucularımızla bölüşək. Belə ki, 2023-cü ilin 6 ayı ərzində Naxçıvan Baş Gömrük İdarəsi tərəfindən, ümumilikdə, 513 hüquqpozma faktı aşkar edilib. Onlardan 26-sı narkotik vasitələrin, psixotrop və güclü təsir edən maddələrin qaçaqmalçılığı ilə bağlı olub. Narkotik qaçaqmalçılığı faktları üzrə, ümumilikdə, 568,5 kiloqram heroin, 139 qram həşiş qatranı, 47 qram marixuana, 26 qram tiryək, 11 qram psixotrop, 110 qram güclü təsir edən maddələr qanunsuz dövriyyədən çıxarılıb. Cari ilin 6 ayı ərzində 473 inzibati xarakterli hüquqpozma faktı aşkar edilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 372 fakt çoxdur.

Bəşəriyyəti mənəvi və fiziki sürükləyən "ağ ölüm"ün törətdiyi dəhşətli faciələr və onunla mübarizə ilə bağlı suallarımıza ətraflı cavab almaq üçün Naxçıvan Muxtar Respublikası Psixi Xəstəliklər Dispanserinin Narkologiya şöbəsinin müdiri, həkim-narkoloq ***Azad Şükürlü*** ilə həmsöhbət olduq. Müsahibimiz bildirdi ki, narkomaniya və narkobiznesə qarşı mübarizənin əsas məqsədi insanları narkotik vasitələrdən uzaqlaşdırmaq və narkobiznesin yayılmasının qarşısını almaqdır. Hətta istər Ümumdünya Səhiyyə Təşkilatında, istərsə də ölkəmizdə narkotik vasitələrin istifadəsinin və satışının dayandırılmasını, gənclərimizin bu məsələyə ciddi yanaşmasını, ictimaiyyətin diqqətini bu məsələyə cəlb etməyi və bunun kimi digər vacib amillər nəzərə alınaraq 26 iyun – Narkomaniya və Narkobiznesə qarşı Ümumdünya Mübarizə Günü təsis edilmişdir. İnsanların narkotik vasitələrin təhlükələri, onların istifadəsinin ciddi nəticələri, narkomaniyadan qorunma yolları və müalicə imkanları haqqında müntəzəm məlumatlandırılması mühüm əhəmiyyətə malikdir. Narkomaniya və narkobiznesə qarşı mübarizə həm təşkilatlar, həm də hər bir fərd üçün əhəmiyyətli və aktual məsələdir. Təşkilatlar narkotik vasitələrin daşıyıcılığına qarşı müdafiə tədbirləri planlaşdırmaq və müxtəlif tədbirlər təşkil etməklə bu problemin həllinə kömək edir. Fərdlər isə özünü və yaxınlarını narkotik vasitələrdən uzaq saxlamaq, təhlükəsizlik və qlobal insan sağlamlığı üçün mübarizədə məsul olduğunu anlamaqla əməkdaşlığa çağırılır.

"Cəmiyyətdə "ağ ölüm" adlanan narkotiklə mübarizənin inkişafı və yayılması, insanların maarifləndirilməsi üçün hansı işlər icra olunmaqdadır?" sualına cavabında isə müsahibimiz bildirdi ki, "ağ ölüm" dediyimiz hadisə, narkotik vasitələrin tərkibi ilə birbaşa və ya dolayı yolla beynin funksiyalarını dəyişdirən və buna bağlı olaraq fiziki və psixi sağlamlığı təhdid edən maddələrdir. İstifadə edən şəxslər üçün narkotik vasitələrin yaratdığı ciddi fəsadlar vardır. Buna nümunə olaraq fiziki sağlamlığın pozulması və insanın sinir sisteminin alt-üst olması, müxtəlif nevroz hallarının baş verməsini göstərə bilərik. Sözügedən narkotik maddələr qan dövranına da təsir edərək qanda oksigen və digər maddələrin orqanlara normal çatdırılmasını məhdudlaşdırır. Bu da orqanların və sistemlərin normal funksiyalarının pozulmasına və uzunmüddətli sağlamlıq problemlərinin yaranmasına səbəb olur.

Azad Şükürlü narkotik vasitələrin psixi sağlamlıqla yanaşı, sosial həyata vurduğu zərərlərdən də danışdı: – Narkotik vasitələrdən istifadə yalnız fiziki sağlamlığı deyil, həm də sosial və iş həyatında problemlərə gətirib çıxarır. Narkotiklərə olan asılılıq insanların sosial və iş həyatına da mənfi təsir edir. İş həyatında iş qabiliyyətinin və qərarvermə qabiliyyətinin azalması, həyat yoldaşı, ailə üzvləri və dostlarla problemlər yaranmasına da səbəb ola bilər. Bu halda şəxsin cinayətə cəlb olmaq mərhələsinə belə gəlib çıxması da istisna deyil və bunun da nəticələrini kifayət qədər görmüşük. Xüsusi olaraq diqqətə çatdırmalıyıq ki, narkotik vasitələr həm də istifadəçilər üçün maliyyə problemlərinə səbəb olur və bu, çox vaxt cinayətə cəlb edilməklə nəticələnir.

Həkim-narkoloqun sözlərinə görə, ölkəmizdə narkotik vasitələrin istifadəsinin və narkobiznesin yayılmasının qarşısının alınması üçün bir çox tədbirlər həyata keçirilməkdədir. Azərbaycan qanunvericiliyinə uyğun olaraq narkotik vasitələrin istifadəsinin, daşınmasının, satışının və istehsalının qarşısının alınması üçün müxtəlif məhdudiyyətlər var. Narkotik vasitələrə məruz qalmış insanların müalicəsinin aparılması, düşdükləri çətin və ağır böhrandan xilas olmaları üçün xüsusi klinikalarda, xəstəxanalarda müalicə işləri görülür. Muxtar respublikada isə bu vəzifə Naxçıvan Muxtar Respublikası Psixi Xəstəliklər Dispanserinin Narkologiya şöbəsinin üzərinə düşür. Narkotik vasitələrə asılılıq problemləri ilə üzləşən insanların müalicəsi üçün narkoloji mərkəzimiz fəaliyyət göstərir.

Azad həkim şöbənin iş prosesi barədə ətraflı məlumat verərək bildirdi ki, burada narkotikdən asılılığı olan şəxslərin fiziki və psixi sağlamlığını bərpa etmək, asılılıqdan azad olmaları və yenidən sosial həyata qayıtmaları üçün məsləhət və müalicə təklif edilir. Dispanser mütəmadi olaraq müxtəlif təşkilatlar, qurumlar və ictimaiyyətdə nümayəndələri ilə əməkdaşlıq edir, xüsusi proqramlar icra olunur. Bu kimi işlər narkotik vasitələrin istifadəsinin qarşısını almaq, asılılığı aradan qaldırmaq, asılı olan xəstələri müalicə etmək və ictimaiyyətdə narkotiklərə qarşı maarifləndirməni təmin etmək məqsədilə həyata keçirilən ən mütərəqqi addımlardan biridir.

*Son olaraq biz də diqqətə çatdırırıq ki, bu cür zərərli vərdişlərdən uzaq olmaq üçün hər bir şəxs vaxtını məqsədli və maraqlı fəaliyyətlərlə doldurmağa çalışmalıdır. İdman, təhsil, sənət, rəqs və bu kimi faydalı məşğuliyyətlər onları narkotikin – "ağ ölüm"ün pəncəsindən xilas etməklə yanaşı, həm də sosial həyatın bir parçasına çevirəcək...*

**✍ Bülbül QULİYEVA**

**✍ Aysel YUSİFZADƏ**

### *Bildiriş*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 21 iyun 2023-cü il tarixli 324-06S nömrəli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzi ləğv edilmişdir.

***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 14 iyun 2023-cü il tarixli 322-06S nömrəli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi" publik hüquqi şəxsi ləğv edilmişdir.

***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 10 iyul 2023-cü il tarixli 187-VI FR nömrəli Fərmanı ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidməti, "Naxçıvan Məhsulları" publik hüquqi şəxsi və "Naxçıvan Toxumçuluq Mərkəzi" publik hüquqi şəxsi ləğv edilmişdir.

***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 3 may 2023-cü il tarixli 301-06/S nömrəli Sərəncamına əsasən "Naxçıvan Muxtar Respublikasının Dövlət Sığorta Xidməti" publik hüquqi şəxsi ləğv edilmişdir.

### *İtmişdir*

Babək rayonunun Yarımca kəndində yaşamış Hümbətov Cəfər Əli oğlunun adına olan JN-103/01 nömrəli, 103013004829 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Zeyvə kənd sakini Vəliyev Ələddin Əhməd oğlunun adına verilmiş 102013005683 reyestr nömrəli plan-ölçü itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Didivar kəndində yaşamış Əhmədov Etibar Hatəm oğlunun adına verilmiş JN-185B nömrəli, 10311058 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Məcid Əkbərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 469